## Con Steynbek

# XRİZANTEMLƏR

Qəlbidəki boz-xovlu qış dumanı Salinas vadisini həm göydən, həm də dünyanın qalan hissəsindən ayırmışdı. Qapaq kimi hər tərəfdən dağların üstünə çökmüş duman böyük vadini ağzıbağlı qazana çevirmişdi. Geniş düzəngahlarda kotanların dərin şırımlarda ardıcı qara torpaq metal kimi parıldayırdı. Salinas çayının eninə düzülən dağətəyi fermalarda sarı kövşənlər sanki solğun və soyuq günəş şəfəqlərində çimmişdilər, amma dekabrda vadidə günəş şəfəqləri olmur. Çay boyu uzanan sıx söyüdlüyün sarı yarpaqlarıydı belə parıldayan.

Ətraf sükut içindəydi, nəsə gözlənilirdi. Hava soyuq və zərifdi. Cənub-qərbdən əsən külək elə gücləndi ki, fermerlər yaxşı bir yağış yağacağına ümid elədilər, amma dumanla yağış eyni vaxtda gəlmir.

Henri Allenin çayın qırağındakı dağətəyi fermasında xeyli iş görülmüşdü: ot çalınıb yığılmış, meyvə bağı bellənmişdi ki, yağış yağsa, daha dərinə getsin. Hündür yamaclardakı mal-qaranı tük basmışdı.

Çiçəklikdə işləyən Elisa Allen həyətə baxıb, əri Henrinin iş paltarı geymiş iki kişiylə danışan gördü. Üçü də traktor qarajı tərəfdə, bir ayaqlarını Fordsonun qırağına qoyub, siqaret çəkə-çəkə danışır və maşına baxırdılar. Bir az onlara baxandan sonra Elisa yenə öz işiylə məşğul oldu. Onun otuz beş yaşı var; arıq üzü ciddidi, gözləri bulaq suyu kimi təmizdi. Bağda işləyəndə geydiyi kostyumda bədəni təcrid olunmuş və ağırlaşmış kimi görünürdü, başındakı qara rəngli kişi şlyapası gözünün üstünə düşmüşdü, ayağında kobud çəkmə var idi, üstüişləməli geyimi qayçı, bel, dırmıq, toxum və əlində işlətdiyi bıçaq üçün dörd iri cibi olan velvet döşlüklə az qala tamam örtülmüşdü. Ağır dəri əlcək geymişdi ki, işləyəndə əli əzilməsin.Qısa və möhkəm qayçıyla xrizantemlərin keçən ilki saplaqlarını kəsirdi Elisa, hərdən də traktor qarajı tərəfdəki kişilərə baxırdı. Onun yetkin sifəti ehtiraslı və gözəl idi; hətta qayçıyla işləməyində də qeyri-adi bir ehtiras və güc duyulurdu. Onun gücü qarşısında xrizantem çubuqları çox zərif və balaca görünürdülər. Gözünün üstünə düşən saç çəngəsini əlcəyin arxasıyla geri eləyəndə yanağına palçıq yaxdı. Arxada, pəncərələrə çatan sıx bitmiş qırmızı ətirşah çiçəkləriylə əhatə olunmuş səliqə-səhmanlı ağ ferma binası yerləşirdi. Pəncərələri yaxşı cilalanmış və pilləkəninə ayaqaltı salınmış təmiz və səliqəli bir evdi bu.

Eliza yenə traktor qarajı tərəfə baxdı: yad adamlar indi onların hühdürbortlu gübrədaşıyan arabalarının içindəydilər. Əlcəyini çıxardıb güclü barmaqlarını köhnə xrizantem köklərinin ətrafında bitmiş yaşıl, təzətər cücərtilərin arasına qoydu. Yarpaqları yayıb sıx cücərtilərin ara-

bərəsinə baxdı. Burda nə bit, nə məryəmqurdu, nə ilbiz, nə də ziyanverici kəpənək tırtılları var idi. Onun sürətlə işləyən barmaqları zərərli həşəratları yerindəcə məhv eləyirdi.

Elisa ərinin səsinə diksindi . O, sakitcə yaxınlaşdı, çiçəkləri heyvanlardan, itlər və cücələrdən qorumaq üçün çəkilmiş dəmir tor arakəsmənin üstünə əyildi.

- Yenə çiçəklər, - dedi. - Yaxşı çıxış almısan.

Elisa belini düzəltdi, əlcəklərini təzədən geydi. “Hə, gələn il lap yaxşı olacaq," - dedi. Onun danışıq tərzində və üzündə bir az qürrələnmək var idi.

- Bacarıqlısan, - Henri dedi. - Bu il sarı xrizantemlərin eləsi var idi, o düymə enindəydi. Çox istərdim ki, meyvəçilikdə də belə nəticələr əldə eləyəsən, o cür iri almalar yetişdirəsən.

Elisa diqqətlə baxdı. “Bəlkə, bunu da bacardım. Belə şeylərdə bacarıqlıyam. Anam beləydi. Yerə sancdığı çöpü də bitirib böyüdürdü. Deyirdi ki, əlim əkinçi əlidi, işini bilir."

- Hə, çiçəklərdə bu özünü göstərir, - Henri dedi.

- Henri, o kişilər kim idi?

- Hə, gəlmişdim elə onu deyəm sənə. Qərb Ət Kompaniyasındandılar. Üçillik cöngələrin otuzunu satdım. Hardasa elə mən deyən qiymətə razılaşdıq.

- Yaxşıdı, - Elisa dedi. - Yaxşı eləmisən.

- Həm də deyirəm, -Henri sözünə davam elədi, - deyirəm şənbə günüdü, günortadan sonra Salinasa gedib restoranda nahar eləyərdik, sonra kinoya gedərdik - bu hadisəni əməlli-başlı qeyd eləyərdik.

- Yaxşı, - Elisa təkrar elədi. - Hə, yaxşı olar.

Henri zarafatyana tonda davam elədi: “Bu axşam döyüş də var. Necə bilirsən, bəlkə, döyüşə də baxardıq?"

- Oh, yox, - nəfəsini çəkib dedi. - Yox, döyüş xoşlamıram.

- Zarafat eləyirəm, Elisa. Biz kinoya gedərik. Gedək baxaq. Iki film gedir indi. Mən Skottini götürüb gedirəm, cöngələri təpədən aşağı endirib gələcəm. Hardasa iki saat çəkəcək. Saat beş üçün şəhərə gedib Kominos otelində nahar elərik. Hə, necədi, xoşuna gəlir?

- Əlbəttə, xoşuma gəir. Evdən kənarda nahar eləmək yaxşıdı.

- Hə, lap yaxşı. Mən də gedim iki at götürüm.

"Elə bilirəm ki, onacan bu cərgələrin bir neçəsini çıxardıb başqa yerdə əkə bilərəm,"- Elisa dedi. Sonra o eşitdi ki, əri anbar tərəfdə Skottini səsləyir. Az sonra isə, solğun sarı təpənin ətəyiylə iki kişinin, at belində, öküzləri axtarmağa getdiyini gördü. Burda xrizantemlərin kök atması üçün kvadrat şəkilli balaca qum ləki var idi. Belləyib torpağın altını üstünə çevirdi, hamarlayıb sığalladı, sonra bellə döyüb bərkitdi. Şitilləri əkməyə bir-birinə paralel on cız düzəltdi. Xrizantem ləkinin arxa tərəfindəki cücərtilərdən çıxartdı, əlindəki qayçıyla hər birinin

yarpaqlarını kəsdi və səliqəylə dəstələdi. Yol tərəfdən oxa sürtünən təkər səsi, nal tappıltısı eşidildi. Elisa boylanıb baxdı. Söyüd və qovaq ağaclarının sıx bitib yayıldığı çayın sahili boyu uzanan kənd yoluyla qəribə bir nəqliyyat gəlirdi; üstünə mühacir vaqonlarının örtüyünə oxşayan dairəvi brezent çəkilmiş ressorlu furqon idi bu - yorğun qoca atla bozumtul ağ eşşəyin qoşulduğu furqon. Qısasaqqal, cantaraq kişi brezent yanların arasında oturub, güclə yeriyən qoşqu heyvanlarını idarə eləyirdi. Furqonun altında, dal təkərlərin arasıyla qarışıq cinsli arıq, uzunayaq it sakitcə yeriyirdi. Brezentin üstü səliqəsiz, əyri-üyrü xətlə yazılmışdı: "Mətbəx qab-qacağı, bıçaqlar, qayçılar,qazon otunun biçilməsi. Həmişə. ”İki sətirin altından

yazılmış, səhv də olsa, təntənəli yekun: “Həmişə. "Hər bir hərfin altından kiçik iti xətlər boyunca qara rəngli boya axmışdı.

Elisa çömbəltmə oturub, salxaq-sərgərdan furqonun ötüb keçməsinə baxırdı. Amma furqon keçib getmədi, onların evinin qarşısında köhnə əyri təkərlərini qıcırdadıb cırıldadaraq ferma yoluna döndü. Uzunayaq it təkərlərin arasından çıxıb qabağa qaçdı. Dərhal da iki ferma iti onun üstünü aldı; üçü də dayandı, titrəyən düz quyruqları və gərgin ayaqlarıyla tələsmədən, səfir ləyaqətiylə dövrə vurub, məlahətlə fınxırdılar. Karvan məftil tordan olan arakəsməyə çatıb yavaşıdı və dayandı. Təzəgələn it say üstünlüyünü görüb quyruğunu qısdı, beliylə boynunun tüklərini qabardaraq dişlərini göstərdi və furqonun altına girdi. Furqonda oturmuş kişi qışqırdı: “Bu itin əlinə girəvə keçsə, üzünü görmə."

Elisa güldü: "Görürəm. Belə şey, ümumiyyətlə, tez-tezmi olur?"

Kişi də Elisaya qoşulub ürəkdən güldü: “Bəzən heç həftələrlə olmur," - dedi və köntöy bir hərəkətlə təkərin üstündən aşağı düşdü. Atla eşşək susuz çiçək kimi ölgün idilər.

Elisa gördü ki, kişi çox cantaraq adamdı. Saç-saqqalı ağarsa da qoca görünmürdü. Əynindəki qara nimdaş kostyum qırışmışdı və üstündə yağ ləkələri var idi. Onun gülüş səsi kəsilən kimi üzündə və gözündəki təbəssüm də yox oldu; qara gözləri faytonçu və dənizçilərə xas olan kədərlə doluydu. Toxunma məftil arakəsmənin üstünə qoyduğu qabarlı əlləri çatlamışdı və hər çat qara xətt əmələ gətirirdi. Əzik şlyapasını başından götürdü.

- Mən yol azmışam, madam, - kişi dedi, - bu yol çayın o üzündə Los Ancelosa gedən magistral yolla kəsişirmi?

Elisa ayağa durub qayçını döşlüyün cibinə qoydu.

- Bəli, -dedi,- amma dövrə vurur, sonra çayın dayazından keçir. Məncə, sizin furqon qumdan keçə bilməyəcək.

Kişi bir az kobud cavab verdi: "Heyvanların hansı fədakarlığa qadir olduğunu görsəydiniz, təəccüblənərdiniz."

- Özlərini işə verəndə, eləmi? - Elisa soruşdu.

Kişi bir anlığa gülümsədi: "Bəli, özlərini işə verəndə."

- Yaxşı,- Elisa dedi, - elə bilirəm ki, geri dönüb, Salinas yoluna, ordan da magistral yola çıxsanız, vaxtınız hədər getməz.

Kişi iri barmağını məftil torun üstüylə sürüşdürüb səs çıxardı. "Mən tələsmirəm, madam. Hər il Sietldən San Dieqoya gedib qayıdıram. Altı aya gedirəm, altı aya da qayıdıram. Bütün vaxtım buna gedir. Bircə istəyim var: təki hava xoş olsun." Elisa əlcəklərini çıxardıb döşlüyün qayçı olan cibinə qoydu. Başındakı kişi şlyapasının alt tərəfinə əlini toxundurub çölə çıxmış tükləri axtardı. "Bir növ, gözəl yaşamaq üsuluna oxşayır." - dedi.

Kişi arakəsmənin üstündən əyilib öz sirrini açdı: "Olsun ki,furqonun üstündəki yazıya fikir vermisiniz. Mən qab-qacaq təmir eləyirəm. Bıçaq və qayçı itiləyirəm. Belə işiniz varmı?"

- Oh, yox, - Elisa tələsik cavab verdi. - Belə işimiz yoxdu, - baxışları sərtləşdi.- Ən çətini qayçıdı, - kişi izah elədi. - Çox adam qayçını itiləyib xarab eləyir, amma mən bu işin çəmini bilirəm. Xüsusi bir alətim də var. Qayçıitiləyən balaca dəri çarxdı, kəşfdi. Amma bacarıq lazımdı.

- Yox, mənim qayçılarımın hamısı itidi.

- Yaxşı, onda qazan gətirin, - kişi ciddi danışaraq sözünə davam elədi, -əzik olsun, deşik olsun. Kefiniz istəyən kimi, elə düzəldərəm, təzəsini almağa ehtiyac olmaz. Pulunuz da cibinizdə qalar.

- Yox,- Elisa kəsə dedi.- Sizin işinizə yarayan heç nəyim yoxdu.

Kişinin üzünə ağır bir kədər çökdü. Az qala ağlamsıyan yavaş səslə dedi: "Işləməyə bu gün əlimdə heç nə yoxdu. Olsun ki, bu axşam yeməyə də heç nəyim olmayacaq. Bilirsiniz, həmişə getdiyim yoldan uzaqdayam. Sietldən San Dieqoyacan yol boyundakı camaatı yaxşı tanıyıram. Bir şey itiləmək lazım olanda mənə saxlayırlar, bilirlər ki, bu işi yaxşı bacarıram və onların da pulu cibində qalır.

- Üzr istəyirəm, - Elisa əsəbi halda dedi. - Sizə verməli heç nəyim yoxdu.

Kişinin baxışları qadının üzündən yayınıb yerə zilləndi, nəsə axtarırmış kimi ətrafı dolanıb Elisanın işlədiyi xrizantem ləkinə tuşlandı: "Nə əkirsiniz, madam? "

Elisanın üzündəki əsəbi gərginlik silinib yox oldu: "Oh, bu xrizantemdi; iri ağ və sarı xrizantemlər. Hər il əkirəm, bu tərəflərdə ən iri çiçəkləri mən becərirəm."

- Uzunsaplı çiçəklər? Parlaq tüstü rənginə çalır? - kişi soruşdu.

- Elədir ki, var.Nə yaxşı da təsvir elədiniz.

- Nə qədər ki, öyrəşməmisiniz, başgicəlləndirici iyi var, - kişi dedi.

- Acıtəhər qəşəng iyləri var,- Elisa etiraz elədi,- heç də başgicəlləndirici deyil.

Kişi tələsik tonu dəyişdi: "Bu qoxu mənim xoşuma gəlir."

- Bu il ondüymlük çiçəklərim var idi, - Elisa dedi.

Kişi məftil arakəsmənin üstündən bir az da qabağa əyildi: "Bəri baxın, yol tərəfdə bir qadın tanıyıram, çox yaxşı bağı var. Hər çiçəkdən varıdı,amma bir dənə də xrizantemi yoxdu. Keçən dəfə onun mis ləyəninin dibini düzəldirdim (çətin işdi, amma mən bunu yaxşı bacarıram), mənə dedi ki, işdi-şayət, xrizantem görüb-eləsəniz, bir az toxum gətirin mənə. Hə, bax belə dedi." Elisanın gözlərində həyəcan və səbirsizlik göründü: "O qadın xrizantemlər barədə nə bilə bilərdi ki. Toxumunu da əkə bilərsiniz, amma ən asan yol, bax, burda gördüyünüz şitilləri əkməkdi."

- Oh, - kişi dedi. - Deməli, mən ona heç nə apara bilmərəm.

- Yox, niyə ki, apara bilərsiniz, - Elisa qışqırdı. - Bir neçəsini nəm qumun içinə qoyaram, gedəndə özünüzlə apararsınız. Əgər dibçəkdə nəm saxlansalar, kök atacaqlar. O qadın sonra onları başqa yerə əkə bilər.

- Yəqin ki, o qadın sevinəcək, madam. Deyirsiniz, bunlar yaxşıdılar, eləmi?

- Gözəldilər, - Elisa dedi. - Oh, gözəldilər. - Onun gözləri parladı, əzik şlyapasını başından götürüb qara, qəşəng saçlarını silkələdi. - Mən onları gül dibçəyinə qoyacam, siz də özünüzlə apara bilərsiniz. Keçin həyətə.

Kişi doqqazdan keçib gələnəcən həyəcanlanmış Elisa qırağında ətirşah bitmiş cığırla evin arxasına qaçdı və qırmızı rəngli böyük gül dibçəyiylə geri qayıtdı. Indi əlcəklərini unutmuşdu. Cücərti ləkinin yanında dizini yerə qoydu, qumlu torpağı barmaqlarıyla eşələyib, təzə, parlaq dibçəyə yığdı. Sonra da hazırladığı bir dəstə cücərtini götürdü. Öz güclü barmaqlarıyla onları qumun içinə soxub, yan-yörələrini əliylə döyəclədi. Kişi onun başının üstündə dayanmışdı. "Neyləmək lazım olduğunu mən sizə deyəcəm, - Elisa dedi. - Yadınızda saxlayın ki, o lediyə deyə biləsiniz."

- Yaxşı, çalışıb yadımda saxlaram.

- Hə, baxın. Bunlar hardasa bir aya kök atacaqlar. Sonra o ledi bunları bir-birindən bir fut aralı, bax, bu cür yaxşı münbit torpağa basdırmalıdı, bildiniz? - deyib bir ovuc qara torpağı yuxarı qaldırdı ki, kişi görsün. - Tezliklə boy atıb nə hündürlükdə olacaqlar. Bunu yadınızda saxlayın və o lediyə deyin ki, iyul ayında bunları hardasa torpaqdan səkkiz düym hündürlükdə kəsmək lazımdı.

- Çiçəkləməmişdən əvvəl? - kişi soruşdu.

- Bəli, çiçəkləməmişdən əvvəl, - onun üzündə coşqun ehtirasdan doğan bir gərginlik vardı.- Yenidən boy atacaqlar. Sentyabrın axırlarında çiçəkləməyə başlayacaqlar.

Elisa əl saxladı, elə bil ki, heyrətə gəldi. "Çiçəkləmə dövrü ən çox qayğı tələb edir, - tərəddüd içində dedi. - Bilmirəm sizə necə deyim, - diqqətlə kişinin gözünün içinə baxdı, ağzı bir

az açıldı, elə bil nəyəsə qulaq asırdı. - Mən sizə deyərəm, - dedi. - Heç, birdən-ikiyə əkinçi əlləri barədə eşitmisiniz?

- Deyə bilmərəm ki, eşitmişəm, madam.

- Yaxşı, mən ancaq deyə bilərəm ki, necə təsir bağışlayır. Elə bil ki, siz istəmədən tumurcuqları qoparırsınız. Hər şey barmaqlarınızın ucundadı, görürsünüz ki, barmaqlarınız işləyir və bu işi özbaşına görür. Siz bunu hiss eləyirsiniz, barmaqlarınızla səhv eləmədən tumurcuqları seçirsiniz. Əliniz bitkiylədir. Təsəvvür edirsiniz? Başa düşürsünüz?

Elisa dizini yerə qoyub aşağıdan yuxarı baxırdı; döşü ehtirasla qabardı.

Kişinin gözləri qıyıldı, utanıb uzağa baxdı: “Olsun ki, bilirəm, - dedi. - Hərdən gecələr burda, furqonda..."

Elisanın səsi xırıldadı, kişinin sözünü kəsdi: ”Mən heç vaxt sizin kimi yaşamamışam, amma bilirəm nə demək istəyirsiniz. Qaranlıq gecədə, hə, qaranlıqda ulduzların ucu iti olur və hər tərəf sükuta qərq olur. Hə, siz yuxarı, yuxarı qalxırsınız. Hər parlaq ulduz cisminizə daxil olur. Bax, buna oxşayır. Isti, iti və gözəl."

Diz üstə çökən qadının əlləri kişinin ləkəli şalvardakı ayaqlarına tərəf uzandı, cəsarətsiz barmaqları onun paltarına toxundu, sonra əli yerə düşdü; adama yalmanan it kimi yerə çökdü qadın.

Kişi dedi: "Hə, düzdü, elə siz deyən kimidi. Amma əgər şam yeməyinə bir şeyiniz yoxsa, belə olmur."

Elisa ayağa durdu: qaməti dümdüz, üzündə xəcalət. Dibçəyi sakitcə kişiyə uzatdı: "Bunu furqonun oturacağına qoyun ki, gözünüz həmişə üstündə olsun. Mən də görüm neyləyirəm, bəlkə, sizin üçün bir şey tapa bildim."

Evin dal tərəfindəki qab-qacaq tığının içindən axtarıb iki köhnə, əzik alüminium qazan tapdı, gətirib kişiyə verdi: "Götürün, bəlkə düzəldə bildiniz."

Kişinin rəftarı dəyişdi, indi o, usta idi. “Elə düzəldəcəm ki, lap təzə olacaq", -dedi. Furqonun arxa tərəfinə balaca zindan bərkitdi, alətlər yığılmış yağlı yeşikdən balaca maşın çəkici çıxartdı. Elisa qapıdan keçdi ki, qazanların əzik yerlərini kişi döyüb düzəldəndə baxsın. Kişinin üzündən görünürdü ki,bu işi bilir və özünə inanır; işi çətinə düşəndə alt dodağını sorurdu.

- Siz,doğrudan da, furqonda yatırsınız? - Elisa soruşdu.

- Doğrudan da, furqonda yatıram, madam. Yağış yağsın, gün çıxsın, fərqi yoxdu, yerim də qupquru olur.

- Yəqin ki gözəldir? - Elisa dedi. - Bu, çox gözəl olmalıdı. Kaş qadınlar da belə işləri bacaraydılar.

- Belə həyat qadın üçün deyil.

Elisanın üst dodağı azca yuxarı qalxdı və dişləri göründü. "Hardan bilirsiniz, niyə elə danışırsınız?" - dedi.

- Bilmirəm, madam, - kişi etiraz elədi. - Əlbəttə, bilmirəm. Bu da sizin qazançalarınız, hazırdı. Təzəsini almalı olmayacaqsız.

- Neçə verəcəm?

- Oh,əlli sent eləyir. Mən əlmuzdu az alıram, işimi də yaxşı görürəm. Ona görə böyük yol boyundakı camaatın hamısı mənim müştərilərimdi.

Elisa evdən əlli sent gətirib ona verdi."Sizinlə rəqabət aparan adam olsaydı, təəccüblənərdiniz. Mən də qayçı itiləyə bilərəm. Balaca qazanların əzik yerlərini döyüb düzəldə bilərəm. Qadının nəyə qadir olduğunu sizə göstərə bilərəm. Çəkici qaytarıb yağlı alət yeşiyinə qoydu kişi, zindanı da gizlətdi. "Qadın üçün tənha bir həyat olardı bu, madam; bütün gecəni heyvanlarla

bir yerdə arabanın altında qalmaq həm də qorxulu olardı", - dedi, vərdənənin üstünə qalxıb, eşşəyin omba sümüyünün üstündə əliylə tarazlığını saxladı və yüyəni qaldırdı. "Çox sağ olun, madam, - dedi. - Siz deyən kimi edərəm: geri qayıdıb Salinas yoluna çıxacam."

- Ora çatanacan ləngiyəsi olsanız, qumu nəm saxlamağı yadınızdan çıxarmayın.

- Nə dediniz, madam, qum? Qum? Oh, əlbəttə. Siz xrizantemləri nəzərdə tutursunuz? Əlbəttə, yaddan çıxartmaram, - deyib dilini şaqqıldatdı. Heyvanlar xamutlarında dartınıb təntənəylə əyildilər. Qarışıq cinsdən olan it arxa təkərlərin arasında öz yerini tutdu. Furqon dönüb girişdən çıxdı və gəldiyi çayqırağı yolla geri qayıtdı.

Elisa məftildən toxunmuş arakəsmənin qarşısında dayanıb, yavaş-yavaş irəliləyən karvana baxırdı: çiyinlərini düz tutub, başını geri atır, yarıaçıq gözləri bu mənzərəni güclə görür. Dodaqlarını tərpədib yavaşca: “Əlvida, əlvida", - deyirdi. Sonra pıçıldadı: "Düz yoldasan. Orda işıq var.” Öz pıçıltısından qorxdu. Silkinib özünü yığışdırdı, yan-yörəsinə baxdı ki, görsün eşidən olmayıb. Amma itlər eşitmişdi. Tozun içində yatan itlər başlarını qaldırıb, çənələrini qabağa uzatdılar və təzədən yatdılar. Elisa çevrilib tələsik evə qaçdı. Mətbəxdə əlini sobanın arxasına uzadıb su bakını yoxladı. Günorta biş-düşündən qalmış isti su ilə doluydu bak. Çirkli paltarlarını soyunub, hamamın küncünə atdı. Sonra süngər daşıyla ayaqlarını, yanbızlarını, belini, döşünü və əllərini o qədər sürtdü ki, dərisi cızılıb qızardı. Yataq otağındakı güzgünün qabağında dayanıb qurulananda bədəninə baxdı. Qarnını yığıb döşünü qabartdı. Çevrilib çiyinləri üstdən boylanaraq dalına baxdı.

Sonra tələsmədən paltarını geyinməyə başladı. Təzə alt paltarını, qəşəng corablarını və gözəllik simvolu olan donunu geyindi. Saçlarını çox diqqətlə darayıb düzəltdi, qaşlarını karandaşla tündləşdirdi, dodağına boya çəkdi.

Hazırlaşıb qurtarırdı ki, heyvan ayaqlarının yavaş tappıltısı və qırmızı cöngələri həyətə dolduran Henri ilə köməkçisinin hayxırtısını eşitdi. Çöl qapı danqıldayıb örtüldü və Elisa ərini qarşılamağa hazırlaşdı.

Kandardan ayaq səsləri gəldi, Henri evə girib onu səslədi: ”Elisa, hardasan?"

- Geyinirəm. Hələ hazır deyiləm. Yuyunmağa da orda isti su var. Bir az tez ol. Gecikirik.

Henrinin vannada suyu şappıldatdığını eşidən Elisa, onun qara kostyu-munu, köynəyini, corabını və qalstukunu gətirib, çarpayının üstünə düzdü, parıldayan ayaqqabılarını da cütləyib yaxına qoydu. Sonra çıxıb girişdə şux və qıs-qıvraq oturdu. Çayqırağı yola tərəf baxdı, ordakı söyüd cərgəsi don vurmuş yarpaqlarıyla hələ də sarı rəngdəydi və boz dumanın altında zərif günəş şüası zolağına oxşayırdı. Boz gündüz vaxtının yeganə rəngiydi bu. Yerindən tərpənmədən uzun müddət belə oturdu. Hərdən gözünü qırpırdı.Henri qalstukunu jiletin içinə salaraq, qapını taqqıldadıb gəldi. Elisanın bədəni qatıb qaxaca döndü, üzü ciddiləşdi. Henri ayaq saxlayıb ona baxdı: "Nə olub, Elisa? Elə qəşəngsən ki!"

- Qəşəng? Deyirsən qəşəngəm? "Qəşəng" deyəndə sən nəyi nəzərdə tutursan?

Henri çaşdı: “Bilmirəm. Mənə elə gəlir ki, sən dəyişmisən, güclü və xoşbəxtsən."

- Güclüyəm? Hə, güclü. “Güclü" nəyə deyirsən?

Henri tutuldu: "Sən nəsə bir oyun oynayırsan, - aciz-aciz dilləndi: - Nəsə bir oyundu bu. Elə güclüsən və kefin də elə yuxarıdı ki, cöngəni danaboyun eləyib dizinin altına qoyarsan, sonra da adi bir qarpız kimi parçalayıb yeyərsən."

Elisa bir anlığa ciddiliyini itirdi: “Henri! Elə danışma. Sən nə dediyini bilmirsən, - deyib yenə əvvəlki halına qayıtdı. Mən güclüyəm, - özünü öydü. - Amma necə güclü olduğumu əvvəllər bilməmişəm."

Henri traktor qarajı tərəfə baxdı, təzədən Elisaya baxanda isə baxışları dəyişmişdi- yenə özününküydü: “Mən indi maşını çıxardıram. Sən də onacan paltonu geyinə bilərsən."

Elisa evə girdi. Henrinin darvazaya tərəf sürdüyü maşının səsini eşitdi, motor boş yerə işləyirdi. Elisa ləngiyirdi; şlyapasının orasını dartır, burasını sıxırdı. Nəhayət, Henri motoru söndürəndə paltosunu geyinib çıxdı.

Çay boyu palçıqlı yolla atıla-atıla gedən balaca rodster quşları uçurdur, dovşanları qovub kolluğa salırdı. Söyüd cərgəsinin üstüylə ağır-ağır uçan iki boz durna çayın yatağına endi. Irəlidə, lap uzaqda yolla irəliləyən bir qaraltı gördü Elisa və tanıdı. Maşın qaraltıya çatıb ötəndə Elisa çalışacaq ki, o tərəfə baxmasın, amma gözləri sözünə baxmaya da bilər. “Olsun ki, onları

yolda atıb, - öz-özünə pıçıldadı. - Eybi yoxdu, bu elə də əhəmiyyətli deyil. Amma qazanı saxlayıbdı,- öz-özünə izah elədi. - Qazanı saxlayıbdı. Ona görə də yolda ata bilməyib."

Rodster döngəni burulanda Elisa uzaqdan karvanı gördü. Silkələnib, ərinə tərəf elə çöndü ki, maşın ötüb keçən anda nə üstüörtülü balaca furqonu, nə də bir-birinə uyuşmayan ekipajı görə bilmədi.

Bircə an davam elədi bu. Hər şey yaxşı ötüşdü. Elisa geri baxmadı və motorun səs-küyündə səsi eşidilsin deyə, bərkdən: “Bu axşam yaxşı olacaq; yaxşı yemək-içmək olacaq", - dedi.

- Sən yenə dəyişmisən, - Henri gileyləndi, əlinin birini ruldan çəkib Elisanın dizinə toxundu. -Mən gərək səni tez-tez buralara nahar eləməyə gətirəm, hər ikimizçün yaxşı olar bu. Fermada işləməkdən kütləşmişik.

- Henri, şərab da içə bilərikmi?

- Əlbəttə. Yaxşı ki dedin! Bu lap əla olardı. Elisa bir müddət dinmədi, sonra dedi: “Henri, döyüşdə mükafat almaq üçün kişilər biri-birinə çoxmu xəsarət yetirirlər?"

- Hərdən olur, amma tək-tük. Nədi ki?

- Bilirsən, hardasa oxumuşam ki, bir-birinin burnunu sındırırlar, qan axıb sinələrinə tökülür; oxumuşam ki, qana hopmuş əlcəklər daş kimi ağırlaşır.

Henri arvadına tərəf baxdı: “Nə olub, Elisa? Mən heç bilməzdim ki, sən belə şeylər oxuyursan", - dedi. Maşını dayanacağa sürdü, sonra sağa
- Salinas çayının körpüsü tərəfə döndərdi.

- O döyüşlərə qadınlardan da gedən olurmu? - Elisa soruşdu.

- Əlbəttə olur. Nədi ki, Elisa? Sən də getmək istəyirsən? Məncə, xoşuna gəlməyəcək, amma belə istəyirsənsə, səni də apara bilərəm.

Elisa üzgün halda oturacağa yayxanıb: "Oh, yox. Yox. Getmək istəmirəm. Həqiqətən istəmirəm", - dedi. Üzünü çevirdi: "Şərab içsəm bəsdi.
Elə bu da bəsdi. ”Pencəyinin yaxasını qaldırdı ki, qoca arvadlar kimi ağladığını əri görməsin.